Qeyri-rəsmi tərcümə

## PAKİSTAN MİLLİ ASSAMBLEYASI

İslamabad, 2 fevral 2017-ci il

# QƏTNAMƏ

2 fevral 2017-ci il tarixində Pakistan Milli Assambleyasının xarici əlaqələr üzrə daimi komitəsi yekdilliklə qətnamə qəbul etmişdir:

i) Xarici əlaqələr üzrə daimi komitə Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalını və 1992-ci ilin 26 fevral tarixində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində mülki əhaliyə qarşı törədilmiş Soyqırımı pisləyir.

ii) Komitə bir daha Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində təsdiqləyir.

iii) Komitə BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının Ermənistan qoşunlarının Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması ilə bağlı qəbul etdiyi qətnamələrin icra olunmasını tələb edir və beynəlxalq ictimaiyyəti və beynəlxalq təşkilatları Ermənistanı bu qərarların icrasına vadar etməyə çağırır.

iv) Komitə Azərbaycan Respublikasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması istiqamətindəki səylərini dəstəkləyir.